# Karnegi Mellon Universiteti

**Yerləşir:** ABŞ, Pensilvaniya ştatı, Pitsburq şəhəri
**Yaranma tarixi:** 1900-cü il
**Tipi:** Özəl
**Akademik heyət:** 1423 nəfər
**Tələbələrin ümumi sayı:** 13658 nəfər
**Rəsmi saytı:** www.cmu.edu

Karnegi Mellon Universiteti *(Carnegie Mellon University)* ABŞ-ın Pensilvaniya ştatının Pitsburq şəhərində yerləşən özəl ali təhsil müəssisəsidir. Ali məktəb Böyük Britaniyanın "The Times Higher Education World Reputation Rankings" jurnalının 2016-2017-ci tədris ili üçün dünyanın ən yaxşı 100 universiteti arasında 23-cü, ötənilki reytinq sıralamasında 33-cü, " QS World Universities Rankings" jurnalının 2016-2017-ci tədris ili üçün reytinq cədvəlində 58-ci, ABŞ milli universitetləri reytinqində (National Universities Rankings) isə 24-cü sıradadır. Yarandığı gündən universitet qəbul etdiyi yeni-yeni proqramlarla dünya universitetləri arasında əsas yerlərdən birini tutub.

## Tarixi

Şotlandiyadan olan iş adamı və mesenat, məşhur "Mənim qəlbim işlə döyünür" (bu, sonradan universitetin şüarına çevrilib) sözlərinin müəllifi Endryu Karnegi 1900-cü ildə öz vəsaiti hesabına Pitsburq şəhərində Karnegi Texniki Məktəbini yaradıb. Məktəbin yaradılmasında məqsəd bu şəhərin aşağı təbəqəsindən olan insanlarının övladlarına texniki peşə təhsili vermək olub. 1903-cü ildə qızlar üçün Marqaret Morrison Karnegi Kolleci yaradılıb və kollec 1973-cü ilədək fəaliyyət göstərib. 1912-ci ildə Karnegi Texniki Məktəbinin adı dəyişdirilərək Karnegi Texniki İnstitutu olub və burada 4 illik təhsil verilməsinə başlanılıb. 1965-ci ildə Mellon Sənaye Tədqiqatları İnstitutu bu ali məktəblə birləşdirilərək Karnegi Mellon Universiteti adlandırılıb. 1938-ci ildə Karnegi Texniki İnstitutu Forbes prospekti ətrafında yeni ərazi alıb və 1952-ci ildə həmin ərazidə Sənaye İdarəçiliyi Ali Məktəbi, 1971-ci ildə isə Vin yataqxanası (Wean Hall) tikilib. Süni intellekt, robot texnikası və incəsənəti, eləcə də digər sahələrin inkişafı, tələbələrin sayının sürətlə artması burada yeni-yeni obyektlərin tikilməsinə səbəb olub. Təhsil müəssisəsinin ərazisi Sinli Parkdan başlayaraq bütövlükdə Forbes prospekti daxil olmaqla xeyli genişlənib.

Riçard Seyertin 1970-1980-ci illərdə Karnegi Mellon Universitetində prezidentliyi dövründə bu ali təhsil müəssisəsi sürətlə inkişaf edib. 1970-ci ildə universitetin tədqiqat büdcəsi 12 milyon, 1980-ci ilin sonunda isə 110 milyon ABŞ dolları təşkil edib. 1980-ci ilin ortalarında universitetdə hesablama şəbəkəsi yaradılıb, ali məktəbin kampusunda yerləşən bütün obyektlər kompüterləşdirilib. 24 aprel 1984-cü ildə universitetin cmu.edu internet səhifəsi yaradılıb. Beləliklə, Karnegi Mellon Universiteti ali təhsil müəssisələrinin ümumi domeni olan edu-ya qoşulmuş ilk altı universitetdən biri olub.

1990-2000-ci illərdə Karnegi Mellon Universiteti ABŞ-ın elit universitetlərindən ibarət olan "Top 25" reytinqində əsas yerləri tutub. 1997-ci ilin aprelində Yel Universitetinin Meşə təsərrüfatı və ekologiya fakültəsinin dekanı Cared Cohon Karnegi Mellon Universitetinin Qəyyumlar Şurasının sədri seçilib. C.Cohon universitetin inkişafı məqsədilə yeni strateji plan qəbul edib. Karnegi Mellon Universitetində yeni proqram və mərkəzlər yaradaraq hesablama maliyyəsi, informasiya texnologiyaları, idarəetmə, davranış iqtisadiyyatı, insan və kompüterin qarşılıqlı təsiri, əyləncə texnologiyaları və hesablama elmləri üzrə liderlik əldə edib. Son 20 ildə burada Universitet, Teatr və Drama Purnell mərkəzləri, Biznes Məktəbinin Posner binası və bir neçə yataqxana tikilib.

2004-cü il iyulun 1-dən Karnegi Mellon Universiteti "İlhamlandırmaq" adlı kampaniya altında 1 milyard dollar məbləğində vəsait toplayıb. 31 oktyabr 2009-cu ildə kampaniyanın gəliri 605,5 milyon dollar təşkil edib. Bu məbləğin 252,4 milyon dolları universitetin Fonduna verilib.

2009-cu ildə universitet Geyts Hillman kompleksinin tikintisini başa çatdırıb. Buraya 318 bölmə, laboratoriyalar, kompüter otaqları, mühazirə zalları, auditoriyalar və s. daxildir. Kompleks Bill və Melinda Geyts Fondunun 20 milyon və Henri Hillman Fondunun isə 10 milyon dollar vəsaiti hesabına inşa edilib.

2013-cü ilin noyabrında universitetin məzunlarından "Appaloosa Management" investisiya şirkətinin təsisçisi Devid Tepper ali məktəbə 67 milyon dollar hədiyyə edib. Bundan əvvəl də ali məktəbə 56 milyon dollar hədiyyə etmiş D.Tepper bələliklə də universitetin şimal kampusunun genişləndirilməsinə öz töhfəsini verib.

## Universitet bu gün

Karnegi Mellon Universitetinin əsas kampusu Pitsburq şəhərinin mərkəzindən 5 km aralı, Sinli, Şedisayd və Oklend ərazilərində yerləşir. Burada universitetin 81 binası mövcuddur. 1980-ci ildə universitet Şimal Qərb kampusunu əldə edib. Burada universitetin bir sıra yataqxanaları və Geyts Hillman kompleksi yerləşir. Pitsburq şəhərindən başqa, Karnegi Mellon Universitetinin Yaxın Şərqdə, Qətərdə kompüter elmləri, biznes və informasiya sistemləri proqramları təklif edən filialları mövcuddur. Universitetin Kaliforniyanın Silikon Vadisində, Los-Ancelesdə, Şimali Hollivudda, Avstraliyanın Adelaida şəhərində, Afinada, Yaponiyanın Osaka şəhərində, Sinqapurda da filialları fəaliyyət göstərir.

Karnegi Mellon Universiteti yeddi departamentdən ibarətdir: Karnegi Texnologiya İnstitutu, Təsviri İncəsənət, Humanitar və Sosial Elmlər, Heinz, Mellon Elm kollecləri, İnformatika Məktəbi, Federal təhsil portalı və ya Tepper Biznes Məktəbi.

Karnegi Texnologiya İnstitutuna Biotibbi mühəndislik, Kimya, Vətəndaş və ekologiya mühəndisliyi, Elektrotexnika və hesablama texnikası, Texnika və ictimai siyasət, Maşınqayırma, materialşünaslıq və mühəndislik elmləri məktəbləri, İnformasiya Şəbəkəsi və Kompleks Mühəndislik Sistemləri institutları daxildir.

Təsviri İncəsənət Kolleci Memarlıq, İncəsənət, Dizayn, Dram və Musiqi məktəblərindən ibarətdir. Humanitar və Sosial Elmlər Kollecində İqtisadiyyat, İngilis dili, Tarix, Müasir dillər, Fəlsəfə, Psixologiya, Sosial elmlər və Statistika məktəbləri daxildir. Kollec məhz tələbələrə beynəlxalq münasibətlər və siyasət proqramları təklif edir. Heinz Kolleci ictimai siyasət və idarəetmə, səhiyyə siyasəti və idarəetmə, tibbi idarəetmə, dövlət idarəetməsi, idarəetmə bacarığı, informasiya sistemləri idarəetməsi, informasiya texnologiyaları və informasiya təhlükəsizliyi siyasəti ixtisasları üzrə magistr proqramları təklif edir. Kollec İnformasiya sistemləri və idarəetmə, Dövlət siyasəti və idarəolunması məktəblərindən ibarətdir. Mellon Elm Kolleci biologiya, kimya, riyaziyyat və fizika elmləri bölmələrindən ibarətdir. Hazırda bioinformatika, hesablama biologiyası, nanotexnologiya, bioloji fizika sahələrinin inkişafı gedir. İnformatika Məktəbi dünyanın ən yaxşı kompüter elmi verən təhsil müəssisələrindən biridir. Federal təhsil portalı (Tepper Biznes Məktəbi) tələbələrə işgüzar müdiriyyət (MBA) və iqtisadiyyat sahələri üzrə bakalavr, işgüzar müdiriyyət, maliyyə hesablaması (MSCF) və s. sahələr üzrə magistr, doktor proqramları təklif edir. Tepper Biznes Məktəbinin nəzdində Karnegi Menecment və İqtisadiyyat Mərkəzi fəaliyyət göstərir. Bu mərkəz universitetin iqtisadçı alimləri tərəfindən yaradılıb. Mərkəzdə tələbələrə idarəetmə nəzəriyyələri, ilk növbədə, məhdud səmərəlilik və davranış nəzəriyyəsi öyrədilir. Karnegi Mellon Universiteti həmçinin, istənilən şəxsə distant təhsil almaq imkanı verir. Burada distant təhsil yolu ilə onlarca ixtisasa, Federal FlexMode MBA biznes sahəsinə yiyələnmək mümkündür.

Karnegi Mellon Universitetində departament və məktəblərdən əlavə, bir sıra elmi-tədqiqat mərkəzləri və institutlar fəaliyyət göstərir. Pitsburq Superkompüter Mərkəzi 1986-cı ildə Karnegi Mellon Universiteti, Pitsburq Universiteti və Vestinqhaus elektrik kompaniyasının birgə səyi nəticəsində yaradılıb. Robot Texnikası İnstitutu İnformatika Məktəbinin əsas hissəsindən biridir və dünyada robot texnikasının tədqiqatı ilə məşğul olan mühüm mərkəzlərdəndir. Burada hazırlanmış bir neçə robot, xüsusilə H1ghlander Sandstorm robotu dünyada ikinci yerə layiq görülüb. İnformatika Məktəbinin bir hissəsi də İnsan-Kompüter Qarşılıqlı Təsir İnstitutudur. Bu institutda kompüter elmləri, dizayn və s. tədqiqatlar üzrə iş aparılır. Texnologiya Dilləri İnstitutu texnologiya dilləri sahəsi üzrə tədqiqatlar aparır. Burada maşın tərcüməsi, nitqin tanınması, nitq sintezi, informasiyanın axtarışı, əldə olunması, təhlil edilməsi və analizinə xüsusi diqqət yetirilir.

Softveya Mühəndislik İnstitutunu ABŞ Müdafiə Nazirliyinin federal büdcəsi maliyyələşdirir və Karnegi Mellon Universiteti tərəfindən idarə olunur. İnstitutun ABŞ-ın Virciniya ştatının Arlinqton, Almaniyanın isə Frankfurt şəhərlərində filialları var və dünya kompüter şəbəkəsinin sistem təminatı, keyfiyyət yüksəlişi, təhlükəsizliyi və s. məsələlərə xidmət edir. Karnegi Mellon Universiteti kampusunun yaxınlığında "Apple", "Intel", "Google", "Microsoft Disney", "General Motors", "Rand Corporation" şirkətlərinin filialları yerləşir. Universitet "Intel" şirkəti ilə birgə ilk olaraq kleytroniksin (kleytron atomları və ya katomlar, daha genişmiqyaslı maşın və mexanizmlərin hazırlanmasını nəzərdə tutan mühəndislik sahəsi üzrə nano fəaliyyət) tədqiqatını həyata keçirib.

Karnegi Mellon Universitetinin tələbələri çox rəngarəng və maraqlı həyat tərzi keçirir. Burada 225-dən çox tələbə təşkilatı (FBR, Alfa Fi Omeqa) və bədii qalereyalar mövcuddur. Universitet Endryu Karneginin irsi ilə ruhlandırılan güclü şotland ənənələrinə malikdir. Bunlar universitetin talismanı olan şotland teryeri (it cinsi), "Tartan" tələbə qəzeti, Skibo gimnaziyası və "Qanqal" illik məcmuəsidir. Tələbə təşkilatları tələbələrə sosial, tibbi, idman, dini, siyasi, mədəni, mənəvi və digər xidmətlər göstərir. Universitetdə həmçinin yunan ənənələri mövcuddur. Burada "Teta Si", "Çi Omeqa", "Delta Qamma" və s. 26-ya yaxın yunan tələbə təşkilatı fəaliyyət göstərir. Ümumiyyətlə, Karnegi Mellon Universitetində müxtəlif millətlərdən olan tələbələr öz ölkələrinin nümayəndələrindən ibarət olan təşkilatlar, ittifaqlar yaradırlar.

ABŞ-ın bütün universitetlərində olduğu kimi, Karnegi Mellon Universitetində də idmana xüsusi diqqət yetirilir. Burada idmanın, demək olar ki, bütün növləri inkişaf etdirilib və universitetin komandaları (hər komandanın ayrılıqda adları olsa da, bütövlükdə universitetin bütün idmançılarını "Tartanlar" - şotlandlar adlandırırlar) bir çox mühüm nailiyyətlər əldə edib. ABŞ-da onların əsas rəqibləri Sent-Luisdə yerləşən Vaşinqton Universiteti və UAA Case Qərbi Rezerv Universitetinin idman məktəbləridir.

Dünyanın bir çox universitetlərində olduğu kimi, Karnegi Mellon Universitetində də tələbələr kampusda və kampusdan kənarda yerləşən yataqxanalarda qalır. Bakalavr pilləsində oxuyan tələbələrin çox hissəsi yataqxanalarla təmin olunur. Bunun üçün tələbələr universitetin Mənzil İdarəsinə müraciət etməlidirlər. Bu ali məktəbdə tələbələrin 75%-i universitetin kampusunda yaşayır. Universitet tələbələrə otaq, mənzil və ev təklif edir. Qiymətlər otağın, mənzilin, evin şəraitindən asılı olaraq dəyişir. Universitetdə yerləşən böyük yataqxanalardan Vebster, Feirfaks, Doerti, Donner, Morvud, Mac, Nevil və s. qeyd etmək olar.

Universitet 2014-cü ilin oktyabrından 2020-ci ilin oktyabrınadək olan dövrü əhatə edən strateji planın reallaşdırılmasına start verib. Ali məktəbin prezidenti S.Sureşin sözlərinə görə, ali təhsil sistemində qlobal dəyişikliklərin qaçılmaz olduğu indiki dövrdə strateji planın həyata keçirilməsi universiteti daha da güclü edəcək.

## Büdcəsi və təhsil haqları

2015-2016-cı maliyyə ilində universitetin endaument fondunun həcmi 1 milyard 739 milyon ABŞ dolları təşkil edib. 2015-2016-cı tədris ilində ali məktəbin illik gəlirləri 1.112.381, xərcləri 1.078.388 ABŞ dolları həcmində olub. Ali məktəbin prezidenti Subra Sureş, kansleri Farnam Cahaniandır. Akademik heyət 1423 nəfər təşkil edir. 2015-2016-cı tədris ilində universitetdə ABŞ və dünyanın 114 ölkəsindən ümumilikdə 13658 tələbə - 6362 nəfər bakalavr, 7141 nəfər magistratura, 145 nəfər təhsilin digər səviyyələrində tələbə təhsil alıb. Universitetin əcnəbi tələbələrlə iş departamentinin məlumatına görə, 2015-2016-cı tədris ilində əcnəbi tələbələrin sayı 22 faiz təşkil edib. 2016-2017-ci tədris ilində ali məktəbdə illik təhsil haqları bakalavr və magistrlər üçün əsas kampusda və kampusdan kənarda 51196 ABŞ dolları müəyyən olunub. Tələbə yığımları 1114, yaşayış və kirayə haqları 13270 (kampusda), 2760 (kampusdankənar), kitab və digər tədris vəsaitləri 2400, nəqliyyat xərcləri (kampusdankənar) 680 ABŞ dolları təşkil edir. Bütövlükdə isə illik təhsil xərcləri əsas kampusda 67980, kampusdankənar 58150 ABŞ dolları həcmindədir.

Dünyanın digər universitetlərində olduğu kimi, Karnegi Mellon Universitetində də tələbələr üçün müxtəlif təqaüdlər mövcuddur. Universitetə qəbul olmaq istəyən abituriyentlərə əvvəlcədən universitetin təklif etdiyi təqaüdlərlə tanış olmaları tövsiyə olunur. Universitetdə mümkün maliyyə yardımlarına dair statistik göstəricilər belədir: maliyyə yardımı almaq üçün müraciət edənlərin 80 faizi maliyyə yardımları alıb. Birinci kurs tələbələrinini 50 faizi maliyyə yardımı alıb. Maliyyə yardımlarının orta həcmi 38231 ABŞ dolları təşkil edib. Tələbələrin 3 faizi birinci kursdan Karneqi təqaüdü (6895 ABŞ dolları) alır.

Universitetdə müəllim-tələbə nisbəti 1:13-dür. Ali məktəbin auditoriyalarının 65 faizi hər birində 20 tələbə olmaqla təşkil olunub. Universitet məzunlarının məmnunluq dərəcəsi 96 faiz təşkil edir.

## Məşhur məzunları

Karnegi Mellon Universitetinin əməkdaşları və məzunlarından 19-u Nobel, 12-i Tyurinq, 7-i Oskar, 19-u Amerika İncəsənət və Elmlər Akademiyasının, 72 nəfər Milli Elmlər Akademiyasının, 114 nəfər "Emmi", 43 nəfər "Toni" mükafatlarına layiq görülüblər. Məzunlardan "General Motors" şirkətinin keçmiş direktoru və ABŞ-ın beşinci təhlükəsizlik naziri Çarlz Ervin Uilsonu, milyarder Devid Tepperi, "Java" proqramlaşdırma dilinin yaradıcısı Ceyms Hoslinqi, "Sun Microsistems" kompaniyasının yaradıcılarından Endi Bextolşaymı, Pakistanın sabiq federal turizm naziri Niləfər Bəxtiyarı, məşhur pop-rəssam Endi Uorxolu və b. qeyd etmək olar. Eləcə də bu universiteti çoxlu sayda tanınmış aktyor bitirib. Bunlar aktrisalar - Holli Hanter, Barbara Feldon, Meqan Hilti, Kot de Pablo, aktyorlar Ceyms Kromvell, Get Smart, Ted Denson, Van Hensis, Metyu Bomer, Bleyr Andervud və başqalarıdır. Universitetin Nobel mükafatı laureatlarından Klinton Devissonu, Kliford Şulli, Otto Sternı (fizika üzrə), Ada Yonathı, Volter Kohnu, Con Poplu, Pol Floryunu (kimya üzrə), Finn Kidlendi, Edvard Preskotti, Herbert Simonu, Franko Modiqlianini, Merton Milleri, Robert Lukası, Oliver Uilliamsonu (iqtisadiyyat üzrə), Pol Loterburu (tibb və fiziologiya üzrə) göstərmək olar.

Universitetin məzunlarının ümumi sayı 100 mindən artıqdır. Onların böyük əksəriyyəti Google (1438 nəfər), Microsoft (677 nəfər), Oracle (561 nəfər), IBM (542 nəfər), Apple (474 nəfər), Amazon (422 nəfər), Intel Corporation (313 nəfər) və dünyanın digər iri şirkətlərində işləyir. Məzunlardan 15809 nəfər ixtiraçılıq və konstruksiya, 10011 nəfər biznesin inkişafı, 8062 nəfər müəllimlik, 6407 nəfər informasiya texnologiyaları, 6246 nəfər elmi-tədqiqatçılıq, 602 nəfər sahibkarlıq fəaliyyəti sahəsində məşğul-durlar.





*Universitetin elektrik mühəndisliyi laboratoriyasında*



*Universitetin kitabxanasında*



*2016-cı ilin məzunları*

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*